| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.08.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 373 |
| **ADI** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları"nda və 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 01-09-2019, Nəşr Nömrəsi: 191), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2019, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 1478) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.09.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 380.050.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201908280373 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 03.09.2019 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları"nda və 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 3, maddə 209; 2002, 3, maddə 148, 10, maddə 635; 2005, 7, maddə 678; 2006, 5, maddə 472, 10, maddə 902; 2010, 3, maddə 264; 2012, 12, maddə 1360; 2014, 12, maddə 1662; 2017, 12 (II kitab), maddə 2526; 2018, 12 (II kitab), maddə 2737) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin FORMALARI"nda aşağıdakı dəyişiklik edilsin:

1.1. 1-8 nömrəli əlavələrdə "kargüzar" sözü "mütəxəssis (kargüzar)" sözləri ilə əvəz edilsin;

1.2. 7 nömrəli əlavə üzrə:

1.2.1. 11-ci bənd aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 11 | Ər-arvadın "___" ___________________ 20___ il tarixli birgə ərizəsi |
| | Nikahın pozulması haqqında ______________________ rayon (şəhər) məhkəməsinin "___" ___________ 20___ il tarixli ___________ nömrəli qətnaməsi.<br>Qətnamənin qanuni qüvvəyə mindiyi tarix "___" ___________ 20___ il<br>18 yaşa qədər ümumi uşaqlarının sayı _______ |
| | Ərin (arvadın) xəbərsiz itkin düşmüş, yaxud fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə _________ rayon (şəhər) məhkəməsinin "___" ___________ 20___ il tarixli ___________ nömrəli qətnaməsi.<br>Qətnamənin qanuni qüvvəyə mindiyi tarix "___" ___________ 20___ il |

1.3. 14 nömrəli əlavə üzrə:

1.3.1. mətndən "Vətəndaş" sözü (hər üç halda) çıxarılsın;

1.3.2. "ilə olan nikah ləğv edilmişdir, bu barədə nikahın ləğv edilməsi" sözləri "nikahı ____________________________________________ əsasən pozulmuşdur.

*(onların razılığına, ərin (arvadın) ərizəsinə, nikahın pozulması haqqında qətnamə çıxarmış məhkəmənin adı və qətnamənin çıxarıldığı tarix)*

Nikaha "___"__________ 20__ il tarixində xitam verilmişdir.

Bu barədə nikahın pozulması" sözləri ilə əvəz edilsin;

1.3.3. "ləğv olunandan" sözləri "pozulduqdan" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 10, maddə 627; 2005, 7, maddə 678; 2006, 2, maddə 185, 4, maddə 378, 5, maddə 470, 9, maddə 819, 10, maddə 902; 2007, 5, maddə 546, 10, maddə 1026; 2008, 2, maddə 114; 2010, 7, maddə 700; 2011, 7, maddə 737; 2012, 2, maddə 178, 11, maddələr 1203, 1212, 12, maddə 1359; 2013, 3, maddə 348, 5, maddə 580; 2014, 5, maddə 554, 8, maddə 1005; 2015, 5, maddə 669; 2016, 2 (II kitab), maddə 389, 7, maddə 1343, 9, maddə 1585, 11, maddə 1976; 2017, 7, maddə 1499, 12 (II kitab), maddələr 2525, 2760; 2019, 3, maddə 516, 4, maddələr 763, 781) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 5.9.5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.9.6-cı yarımbənd əlavə edilsin:

"5.9.6. məhkəmənin qətnaməsi əsasında nikahın pozulması qeydə alınarkən, nikahın pozulması haqqında akt qeydində və şəhadətnamədə nikaha xitam verilmə tarixi kimi məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gün göstərilir.".

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 28 avqust 2019-cu il
373